# “Allaha dua edirdik ki, gözəl Şuşamızı görmədən bu dünyadan köçməyək”

“Bu gün sevincimin həddi-hüdudu yoxdur. Çünki 30 ilə yaxındır həsrəti ilə yaşadığım Şuşama qovuşmuşam. İllərdir Şuşanı ancaq yuxularda görürdüm.



Allahın rizası ilə, Prezident İlham Əliyevin rəhbərliyi altında Koroğlu nərəli şəhid və qazilərin 44 gün ərzində göstərdikləri şücaət, Həcər ismətli qadınların mətanəti, bir yumruq kimi birləşən Azərbaycan xalqının əzmkarlığı hesabına yuxularım gerçəkləşdi. Bütün bunlar Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində reallaşdı”.

AZƏRTAC xəbər verir ki, bunu Şuşa sakini Tünzalə Babayeva deyib.

“Uzun illər dədə-baba yurdumuzdan məcburi köçkün olsaq da, ürəyimiz Şuşa həsrəti ilə alışıb-yanırdı. Əmin idik ki, bir gün bura qayıdacağıq. Biz öz Prezidentimizə, qəhrəman ordumuza inanırdıq. Onlar da ötən il çoxdan gözlənilən qələbəni 44 gün ərzində bizə bəxş etdilər. Şuşa azad edilən gündən bura gəlməyimizi arzulayırdıq. Allaha dua edirdik ki, gözəl Şuşamızı görmədən bu dünyadan köçməyək. Bu günə şükür, Şuşa yanğımızın üzərinə su səpildi.

Həsrətimizə son qoyan şəhidlərimizin ruhu, onların analarının qarşısında baş əyirəm. Əzalarını itirən, ağır xəsarət alan qazilərimizin tezliklə öz sağlamlıqlarına qovuşmasını diləyirəm. Allah ordumuzu xəta-bəladan, namərd gülləsindən qorusun.

Mən Şuşa rayonunun Xəlfəli kəndindənəm. Bu gün öz kəndimi görə bilməsəm də, doğma şəhərimizi görmək belə ürəyimi sakitləşdirir. Arzu edirəm ki, tezliklə öz yurd-yuvamıza dönək, əvvəlki kimi burdan azərbaycanlıların hənirtisi gəlsin, Şuşaya yeni nəfəs verək.  Dua edirəm ki, Şuşa həsrətində olub, lakin səhhətlərində yaranan problem səbəbindən gələ bilməyənlər də tezliklə sağalıb doğma şəhəri görməyə gəlsinlər”, - deyə T.Babayeva qeyd edib.

Azərbaycan.- 2021.- 7 sentyabr.- S.4.